**Azərbaycan Texniki Universitetinin Sosial İnkişaf Mərkəzinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Texniki Universitetinin (AzTU) struktur bölməsi olan Sosial İnkişaf Mərkəzinin (Mərkəz) fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını və fəaliyyətinin təşkili qaydalarını müəyyən edir.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Əmək Məcəlləsini, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər qanunvericilik aktlarını, Universitetinin Nizamnaməsini, AzTU-nun Elmi Şurasının qərarlarını, rektorun əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Bu Əsasnamə AzTU-nun Elmi şurası tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir. Əsasnamədə əlavə və dəyişikliklər AzTU-nun Elmi şurasının qərarına əsasən aparılır. Mərkəz ləğv edildikdə bu Əsasnamə qüvvədən düşmüş hesab edilir.

1.4. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən AzTU-nun digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Mərkəzin fəaliyyət istiqamətləri

2.1. Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. tələbələrə akademik uğur, bilik və səriştələrin əldə edilməsində dəstək göstərir;

2.1.2. tələbə klubları və dərnəklərin fəaliyyətinə dəstək verir;

2.1.3. beynəlmilləşmə və tələbələrin mübadilə proqramlarında iştirakına təşkil edir;

2.1.4. əməkdaşların və tələbələrin sosial problemlərinin həllinə dəstək göstərir;

2.1.5. əməkdaşların peşakar inkişaf mexanizminin yaradılmasını və nəzərdə tutulmuş tədbirlərin icrasını təmin edir;

2.1.6 . qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Mərkəzin əsas vəzifələri

3.1. Mərkəz bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. əməkdaşların və tələbələrin müasir bilik və bacarıqlarının (Xarici dil biliklərinin yaxşılaşdırılması və qiymətləndirilməsi, IT bacarıqlar, “Yumşaq bacarıqlar”, Sahibkarlıq və Startup, Networking, Interviewing, Job Application, Project Management və s.) əldə

olunmasını təşkil etmək;

3.1.2. müvafiq ixtisaslar üzrə tələbələr və məzunların beynəlxalq sertifikasiyasının təşkil olunması istiqamətində tədbirlər görmək;

3.1.3. digər universitetlərlə birgə fəaliyyət istiqamətləri üzrə yarmarkalar təşkil etmək;

3.1.4. sosial ideyaların həyata keçirilməsi üçün resurslar axtarmaq;

3.1.5. qrant müsabiqələrində iştirak üçün layihələri dəstəkləmək;

3.1.6. səmərəli öyrənmə mühitinin formalaşması üçün əməkdaşların və tələbələrin sosial və mənəvi rifahının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.7. əməkdaşların və tələbələrin sosial vəziyyətini nəzərdə saxlamaq, daxil olan sorğuların həllinə müvafiq qaydada HİK və THİK-ilə birlikdə dəstək vermək;

3.1.8. tələbələrdən ibarət klub və dərnəklərinin fəaliyyətinə nəzarət etmək, o cümlədən gənclər arasında elmə həvəsin artırılması üçün müvafiq tədbirlər həyata keçirmək;

3.1.9. tələbə və əməkdaşların təhsil və tədris prosesində yaranan və ya maneə törədən məsələlərin həllinə dəstək vermək;

3.1.10. beynəlxalq təcrübə və mübadilə proqramları haqqında tələbələri məlumatlandırmaq və tövsiyələr vermək;

3.1.11. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.1.12. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

3.1.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq AzTU-da akademik heyətin və tələbələrin mövcud fərqləndirmə və stimullaşdırma mexanizmləri üçün təkliflər vermək;

3.1.14. tələbələri tədqiqatla əlaqəli məsələlərdə məlumatlandırmaq, təlim və konsultasiyalar təşkil etmək;

3.1.15. tələbələrin ölkədəki sosial layihə və tədbirlərdə iştirakını təmin etmək;

3.1.16. mərkəzin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.1.17. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Mərkəzin hüquqları

4.1. Mərkəzin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində AzTU-nun struktur bölmələrinə müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) tələb etmək;

4.1.2. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.3. fəaliyyətin təkmilləşdirilməsi məqsədilə müvafiq sahələr üzrə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün təkliflər vermək;

4.1.4. fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində AzTU-nu dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək;

4.1.5. müvafiq sahələr üzrə Universitetdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə səlahiyyətləri daxilində AzTU-nu təmsil etmək, onların işində iştirak etmək;

4.1.6. müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün AzTU-nun rəhbərliyinə təkliflər vermək;

4.1.7. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Mərkəzin fəaliyyətinin təşkili

5.1. Mərkəzin strukturu və əməkdaşlarının sayı mərkəzin və müvafiq sahə üzrə rəhbər vəzifəli şəxsin təklifləri əsasında rektor tərəfindən müəyyən və təsdiq edilir.

5.2. Mərkəzin fəaliyyətinə rektor tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (mərkəzin müdiri) rəhbərlik edir. Mərkəzin müdiri mərkəzə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Mərkəzin müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada mərkəzin əməkdaşlarından biri və ya rektor tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Mərkəzin digər əməkdaşları rektor tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Mərkəzin müdiri:

5.5.1. Mərkəzin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan şöbə müdirləri arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. fəaliyyət istiqamətlərinə uyğun AzTU-nun strategiyasında, həmçinin mərkəzin iş planında və digər bu kimi sənədlərdə nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra edilməsinə nəzarət edir;

5.5.4. Mərkəz üzrə AzTU-nun Elmi şurasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini rəhbərliyə təqdim edir, mərkəz tərəfindən bu Əsasnamənin 1.2. bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. Mərkəzin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi

üçün rəhbərliyə təqdimatlar verir;

5.5.6. mərkəzin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində digər struktur bölmələrdən zəruri məlumat və sənədləri alır;

5.5.7. mərkəz üzrə daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. Mərkəzdə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. Mərkəzi təmsil edir.

~~5.6.~~ Mərkəzin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.